**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA MÜƏLLİM KADRLARIN HAZIRLANMASINDA ALİ VƏ ORTA İXTİSAS MÜƏSSİSƏLƏRİNİN ROLU (1922-1971-ci illər)

İxtisas: 5503.02 – Vətən tarixi

Elm sahəsi: Tarix

İddiaçının adı: **Zülfiyə İsmayıl qızı İsmayılova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**NAXÇIVAN – 2021**

Dissertasiya işi AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunda yerinə yetirilmişdir.

Elmi rəhbər: Tarix elmləri doktoru
**Fəxrəddin Adil oğlu Cəfərov**

Rəsmi opponentlər: Tarix elmləri doktoru, dosent
**Sevinc İsrafil qızı Əliyeva**

Tarix üzrə fəlsəfə doktoru
**Nadir Müzəffər oğlu Hüseynbəyli**

Tarix üzrə fəlsəfə doktoru
**Yeganə Qurban qızı Məmmədova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Naxçıvan Bölməsinin nəzdində fəaliyyət göstərən ED 1.13 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor
_____________ **İsmayıl Muxtar oğlu Hacıyev**

Dissertasiya şurasının elmi katibi: Tarix üzrə fəlsəfə doktoru, dosent
_____________ **Emin Arif oğlu Şıxəliyev**

Elmi seminarın sədri: Tarix elmləri doktoru
_____________ **Xəzər Allahverdi oğlu Hüseynov**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Hər bir xalqın milli kimliyinin, milli şüurunun formalaşması onun mədəniyyətinin, elminin, təhsilinin inkişafı ilə şərtlənir. Təhsil həm də hər bir xalqın keçmişinin öyrənilməsi üçün böyük əhəmiyyətə malikdir. Bu mənada təhsil tarixinin öyrənilməsi xüsusi aktuallıq kəsb edən məsələlərdəndir. Naxçıvanın təhsil tarixi də bu mənada istisna deyil. 1922-1971-ci illərdə Naxçıvanda orta və ali ixtisas təhsil müəssisələri, onların fəaliyyəti bəzi tədqiqatlarda müəyyən qədər araşdırılmış olsa da, indiyədək sistemli və kompleks şəkildə öyrənilməmiş, həmçinin geniş, əhatəli şəkildə tədqiqata cəlb edilməmişdir. Demək olar ki, indiyə kimi belə bir mövzuya müraciət edilməmişdir. Təqdim olunan dissertasiya işi bu problemin kompleks şəkildə geniş tədqiqata cəlb olunması yolunda göstərilən ilk təşəbbüsdür. Bu da tədqiqat işinin aktuallığını şərtləndirən amillərdən biridir.

Naxçıvan Muxtar Respublikası təhsil işçilərinin müşavirəsində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu məsələyə toxunaraq demişdir: *"Azərbaycan təhsilinin uzun illik tarixi vardır. III-V yüzilliklərdə ölkəmizdə dəbestanlar, ibtidai təhsil verən məktəblər geniş yayılmışdır. Bəzi tarixi mənbələr V-VII əsrlərdə Azərbaycanda ana dilində təhsil verən məktəblərin fəaliyyət göstərdiyini bildirir. Lakin bundan da əvvəlki dövrlərə aid elə tarixi mənbə və faktlar mövcuddur ki, bunlar təhsil sisteminin daha qədim dövrünü nişan verir".*[1]

Şərqin qədim mədəniyyət mərkəzlərindən biri sayılan Naxçıvanda orta əsrlərdən başlayaraq formalaşan maarifçilik ideyası XX əsrdə özünün pik həddinə gəlib çatdı. Bu da bəhs edilən dövrdə mövzunun öyrənilməsini aktuallaşdıran məsələlərdən biri olmuşdur.

Təhsil sahəsinin həmin dövrdən başlayan inkişafı xalqımızda milli-mənəvi dəyərlərə qayıdışın əsasını qoydu. Məlum olduğu kimi, XIII yüzillikdə təhsil sisteminin əsasını məktəblər və mədrəsələr

[1] Vasif Talıbovun Naxçıvan MR təhsil işçilərinin konfransında çıxışı // "Şərq Qapısı" qəzeti. – 2008, 10 sentyabr. – s. 1.

təşkil edirdi. Həmin dövrdə uşaqlar 5-6 yaşında məktəblərə qəbul olunur və burada 15 yaşına kimi oxuyurdular. Məktəbi bitirən uşaqların bir hissəsi mədrəsələrdə təhsillərini davam etdirirdilər. Beləliklə də, Naxçıvan şəhərində yerləşən təhsil müəssisələri öz fəaliyyətlərini XIV-XV yüzilliklərdə də davam etdirmişlər. Bu barədə orta əsr tarixçisi və çoğrafiyaşünası Əbdürrəşid əl-Bakuvinin əsərlərində də müəyyən qeydlər öz əksini tapır. XIII-XV əsrlərdə Naxçıvan nəinki Azərbaycanın, bütövlükdə Şərqin elm və mədəniyyət mərkəzlərindən biri olmuşdur.

Zaman keçdikcə Naxçıvanda təhsil mükəmməl formada inkişaf etməyə başlayırdı. Bu irəliləyiş Naxçıvan xanlığı dövründə daim inkişaf mərhələsində olmuşdur. Bu barədə Naxçıvanda siyahıyaalma keçirən tarixçi İ.Şopen öz əsərlərində qeyd edirdi ki, Naxçıvan təhsil sistemi digər xanlıqlardakı təhsil sisteminin analoqu olmuşdur.[2]

XIX əsrin sonlarından başlayaraq Naxçıvanda yeni tipli şəhər və qəza təhsil ocaqlarının yaradılmasına başlandı. Lakin maarifçilik hərəkatının, elm və təhsilin ən yüksək zirvəsi, şübhəsiz, XX əsrdən başlamışdır. Məhz bu əsrdə Azərbaycanın bütün bölgələrində olduğu kimi, onun ayrılmaz bölgəsi olan Naxçıvanda da təhsil, məktəb sisteminin geniş şəbəkəsi yaradılmış, xalqımız ümumi təhsilə cəlb olunmuşdur. Məhz buna görə də bəhs olunan dövrün təhsil və məktəb tarixinin araşdırılması mövzununun aktuallığını daha da artırır. Həm də mövzunun indiyə qədər araşdırılmaması, bir çox yeni faktların arxiv materialları əsasında ilk dəfə elmi dövriyyəyə buraxılması mövzunun aktuallığını artıran vacib faktlardan biri olduğunu göstərir.

Təhsilin formalaşmasında məktəblərin xüsusi yeri olmuşdur. Tarixə nəzər salsaq, Azərbaycan ərazisində qədim dövrlərdən böyük məktəblər, təhsil ocaqları mövcud olduğunu görürük. Naxçıvanda təhsil XIX əsrdə də böyük inkişaf yolu keçmişdir. Ümummilli lider Heydər Əliyev müəllimlərə müraciətlə demişdir: *“Məktəb elə bir*

[2]Шопен, И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи / И.Шопен. – СПб: Типография Императорской Академии Наук, – 1852. – 1231 с.

*prosesdir, orqanizmdir ki, hamı – şagird də, tələbə də, müəllim də, bütün kollektiv də inkişafdadır*”.[3]

Bəli, belə məktəblərdən biri də bəhs olunan dövrdə Naxçıvanda və Ordubadda mövcud olan pedaqoji texnikumlar, Naxçıvan Müəllimlər İnstitutu və Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı olmuşdur.

Naxçıvan diyarında mövcud olan tarixi mənbələrdə dünya sivilizasiyasının başlanğıcı sayılan Nuhun vətəni Naxçıvan dünyada nəinki zəngin tarixi irsi və mədəniyyəti, eyni zamanda böyük ziyalı ordusu və dahi şəxsiyyətləri ilə şöhrətlənib, istedadlı maarifçilər yetişdirib. Belə dahi şəxsiyyətlərdən, ziyalılardan bir neçə nəfər də vardır ki, tədqiqata cəlb edilən ali və orta təhsil müəssisələrin məzunu olmuş insanlardır. Onlardan da biri məhz ulu öndər Heydər Əliyevdir ki, bu məsələ geniş şəkildə tədqiqata cəlb edilmişdir.

Bununla belə, 1920-ci ildə Azərbaycanın müstəqilliyi əlindən alınmaqla xalqımızın azadlıq ideallarına və mənəviyyatına təcavüz olunmuş, sovet hakimiyyəti illərində ölkəmizin təhsil sahəsində müəyyən inkişaf yolu keçməsi fakt olaraq qalır. Hər halda sovet dövrü Azərbaycanın tarixində müəyyən mərhələ təşkil edir və ziddiyyətlərlə dolu olsa da, bir sıra sahələrdə, o cümlədən təhsil sahəsində də irəliləyişlərin, inkişafın baş verməsi obyektiv qiymətləndirilməlidir. Belə ki, əhalinin savadsızlığının tədricən aradan qaldırılması, təhsilin pulsuz olması, kütləvi xarakter alması və sistem halında formalaşdırılması, təhsilin dünyəviliyinin təmin olunması məhz sovet dövrü ilə bağlıdır.

Naxçıvan Muxtar Respublikasında pedaqoji təhsilin, elmin və mədəniyyətin inkişafında Naxçıvan diyarında texnikumların özünəməxsus yeri və böyük xidmətləri vardır. Qeyd etmək yerinə düşər ki, Naxçıvanda məktəblərin sürətlə artması nəticəsində burada dərs deyəcək müəllim kadrlarına böyük ehtiyac yaranırdı. Bütün bunlara görə, həmin məktəblərdə yeni maarifçilik ideyalarına və yeni düşüncə tərzinə malik müəllimlərin hazırlanması üçün ali təhsil ocaqlarının yaranması zərurəti meydana çıxırdı.

---

[3]“Azərbaycan müəllimi” qəzeti. – 2014, 2 may. – s. 4.

Maarif işi ilə çox maraqlanan, müəllimini sevən ümummilli lider Heydər Əliyev demişdir: *"Mənim müəllimə həmişə böyük hörmətim olubdur. Tez-tez məndən soruşurlar ki, gənc vaxtlarından ən çox hörmət etdiyiniz adamlar kimlərdir? Həmişə cavab vermişəm ki, orta məktəbdə mənə dərs deyən müəllimlər. Mənim müəllimlərim sonralar daha çox olubdur. Mən ali məktəblərdə, xüsusi məktəblərdə təhsil almışam. Mənə bir çox müəllimlər alimlər dərs deyiblər... Ancaq Naxçıvanda orta məktəbdə oxuyarkən müəllimlərimdən aldığım bilik, tərbiyə və təəssürat qəlbimdə daim yaşayır. O müəllimlərin hər birinin siması bu gün də mənim gözümün qarşısındadır. Xatirimdədir, 1990-cı ildə Moskvadan Azərbaycana dönüb Naxçıvana gedərkən mən orada birinci növbədə öz müəllimimi axtarmağa başladım. Məsələn, orada Əli Əliyev var idi. Allaha şükürlər olsun ki, o mənə tarix dərsi deyibdir".*[4]

Bəşəri sivilizasiyanın yüksək pilləsinə yüksəlmək kimi şərəfli yol keçmiş Naxçıvan ali və orta ixtisas təhsil müəssisələrinin yüzlərlə məzunları hər şeydən əvvəl özlərini elm və mədəniyyətin inkişafına borclu bilirlər. Təsadüfi deyildir ki, müasir sivilizasiyanın ən yüksək göstəricisi elmin, təhsilin inkişafı hesab olunur. Elmin, təhsilin inkişaf yolu isə ancaq və ancaq universitetlərdən, institutlardan, məktəblərdən, texnikumlardan, kolleclərdən və s. keçir. Belə zəngin təhsil irsinin tədqiqi müasir dövrdə də aktuallığını saxlayır.

Naxçıvan ali və orta ixtisas təhsil müəssisələrinin muxtar respublikamızın tarixində rolundan danışarkən belə bir cəhət xüsusilə vurğulanmağa layiqdir ki, o, təkcə elm, təhsil ocağı deyil, həm də böyük mənəvi tərbiyə məktəbidir.

Bu gün mütəxəssislər belə hesab edirlər ki, şərəfli yol keçmiş xalqlar hər şeydən əvvəl, elm, təhsil və mədəniyyətin inkişafına borcludurlar. Dünyanın ən qədim və mədəni xalqlarından biri kimi azərbaycanlıların əzəli türk torpaqları olan Naxçıvan adlı Şərq qapısında bu sahədəki fəaliyyətlərinin şanlı tarixi vardır və bu gün onun yaşadılması şərəfi bizlərə nəsib olmuşdur. Təsadüfi deyil ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1999-cu il

---

[4] "Xalq qəzeti", – 1998, 6 may. – s. 2.

11 oktyabr tarixində Naxçıvan Dövlət Universitetinin yeni tədris korpusunun açılış mərasimindəki nitqində deyilirdi: *"Naxçıvan həmişə Azərbaycanın yüksək ziyalı yetişdirən bir diyarı olmuşdur. Naxçıvan Dövlət Universitetinin bu gün mövcud olması Naxçıvanda min illər bundan öncə elmin, mədəniyyətin varlığının, inkişafının məntiqi nəticəsidir" və əlavə etmişdir ki, "bu ali məktəb qonşu ölkələrin elm və təhsil mərkəzləri ilə geniş əlaqələr yaratmaqla bir daha Naxçıvanın Şərqin qapısı olduğunu nümayiş etdirir".*[5]

Tədqiq olunan mövzu Azərbaycan tarix elmində indiyə kimi ayrıca bir tədqiqat obyekti olmamış, ilk dəfə tədqiqat obyektinə çevrilmişdir. Azərbaycan dövlət müstəqilliyi qazandıqdan sonra humanitar elmlərdə, o cümlədən Vətən tarixinin öyrənilməsində yeni baxışlar və yeni tədqiqat əsərləri meydana gəlməyə başladı. Xüsusən sovet dövründə qadağan olunmuş, üstündən keçilmiş və ya sovet prinsiplərinə, rus tarixşünaslığının mənafeyinə uyğun saxtalaşdırılmış bir çox sahələr yenidən milli baxış və milli ideologiya tələbləri əsas götürülməklə tədqiq edilməyə başlandı. Təqdim olunan dissertasiya işində də tədqiqat mövzusu məhz milli dövlətçilik nöqteyi-nəzərindən araşdırılmış, bu məqsədlə müxtəlif dövrlərdə nəşr olunmuş tarixi əsərlərdən, sənəd və materiallardan həmin dövrdə baş vermiş sosial-siyasi proseslərin, təhsil sahəsinin obyektiv şərhi, izahı və öyrənilməsi üçün istifadə edilmişdir.

Bizə qədər mövzunu tam əhatə etməsə də onun ayrı-ayrı sahələri üzrə bəzi tədqiqatçılar araşdırmalar aparmışdır. Belə ki, Ə.Əliyevin,[6] İ.Mollayevin[7] H.Cəfərovun,[8] H.Əhmədovun,[9] Q.Mədətovun,[10] İ.Hə-

---

[5]"Azərbaycan" qəzeti, - 1999, 13 oktyabr. – s.1

[6]Əliyev, Ə. Naxçıvan MSSR-də mədəni inkişafı / Ə.Əliyev. – Bakı: Gənclik, – 1958. 193 s.

[7]Mollayev, İ. Naxçıvan MSSR-də Xalq Maarifinin inkişafı / İ.Mollayev. – Bakı: Elm, – 1983. – 29 s.

[8]Cəfərov, H. Naxçıvanda təhsil: inkişaf yolu və imkanları / H.Cəfərov. – Bakı: Elm və təhsil, – 2011. – 544 s.

[9]Əhmədov, H. XIX əsr Azərbaycan məktəbi / H.Əhmədov. – Bakı: "Maarif", – 1965. – 297 s.

[10]Mədətov, Q. Azərbaycan Böyük Vətən müharibəsində / Q.Mədətov. – Bakı: Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, – 1965. – 503 s.

bibbəylinin,[11] F.Cəfərovun,[12] Y.Məmmədovanın[13] və başqalarının elmi əsərlərində və Naxçıvan Ensiklopediyasında[14] mövzuya uyğun olaraq bəzi məsələlər tədqiq edilmişdir. Bundan əlavə mövzu tədqiq edilərkən bu və ya digər müəlliflərin əsərlərinə yaradıcı şəkildə yanaşılmış, onlardan geniş şəkildə istifadə edilmişdir.

**Tədqiqatın obyekti və predmeti**. Dissertasiyanın tədqiqat obyektini 1922-1971-ci illərdə Naxçıvanda müəllim kadrlarının hazırlanmasında orta və ali ixtisas təhsil müəssisələrinin rolunun hərtərəfli və bütöv bir tam halında araşdırılması, predmetini isə bu illər ərzində Naxçıvanda orta və ali ixtisas təhsil müəssisələri ilə bağlı verilmiş qərarlar, onların fəaliyyəti, kadr hazırlığı zamanı görülmüş işlər, məzunlarının ortaya çıxarılması təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işində qarşıya qoyulan əsas məqsəd 1922-1971-ci illər ərzində Naxçıvanda müəllim kadrlarının hazırlanmasında orta və ali ixtisas təhsil müəssisələrinin rolunu araşdırmaqdan ibarətdir. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələri yerinə yetirmək nəzərdə tutulmuşdur:

-1922-1971-ci illərdə Naxçıvanda ibtidai, natamam və orta təhsilin inkişaf yollarını tədqiq etmək;

-Pedaqoji texnikumların 1922-1971-ci illərdə fəaliyyətinin xarakterik cəhətlərini təhlil etmək;

-Naxçıvan Pedaqoji Texnikumlarında orta məktəblərə müəllim kadrlarının hazırlanması işinin təşkilini öyrənmək;

-Naxçıvan Müəllimlər İnstitutunun 1939-1954-cü illərdə təşəkkül tarixini və ali təhsilli kadrların hazırlanmasında rolunu araşdırmaq;

---

[11]Həbibbəyli, İ. Cəlil Məmmədquluzadə mühiti və müasirləri / İ.Həbibbəyli. – Naxçıvan: Əcəmi NPB, – 2009. – 423 s.

[12]Cəfərov, F. Naxçıvan Muxtar Respublikasında mədəni quruculuq (1920-iyun 1941-ci illər) / F.Cəfərov. – Bakı: ADPU nəşriyyatı, – 2018. – 210 s.

[13]Məmmədova, Y. Naxçıvan Muxtar Respublikasinda ümumtəhsil məktəblərinin inkişaf tarixi (1991–2015-ci illər): / Tarix üzrə fəlsəfə doktoru dissertasiyası / – Naxçıvan, 2017. – 138 s.

[14]Naxçıvan Ensiklopediyası / Buraxılışa məsul V.Talıbov. – İstanbul: Bakanlar medya. – I c. 2005. – 361s. Naxçıvan Ensiklopediyası / Buraxılışa məsul V.Talıbov. – İstanbul: Bakanlar medya. – II c. 2005. – 381s.

- Naxçıvan Müəllimlər İnstitutunda, Pedaqoji texnikumlarda kadr hazırlığında pedaqoji təcrübənin rolunu tədqiq etmək;

-Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialının yaranması və kadr hazırlığında rolunu öyrənmək;

-Pedaqoji Texnikumlarının kollektivi, şagird kontingenti ilə bağlı məsələləri araşdırmaq;

-Naxçıvan Muxtar Respublikası Müəllimlər İnstitutunun və Pedaqoji Texnikumlarının məzunlarının dövlət quruculuğunda və təhsil sahəsində yerini müəyyənləşdirmək.

**Tədqiqatın metodları.** Tədqiqatın nəzəri və metodoloji əsasını arxiv sənədlərinin, tarixi, elmi-ictimai materialların təhlilinə elmi yanaşmaq prinsipi təşkil edir. Mövzu üzərində işləyərkən arxiv materiallarına, onun tədqiqinə həsr olunmuş monoqrafiyalara, dissertasiyalara və bilavasitə pedaqoji-tarixi materiallara tənqidi yanaşma, müqayisəli təhlil aparma əsas meyar olmuşdur. Dissertasiyada mövzuya aid tarixi hadisə və proseslər xronoloji və məntiqi ardıcıllıqla izlənilmiş, öyrənilmiş və araşdırılmışdır. Problem araşdırılarkən son tədqiqatlara daha çox istinad edilmiş, yeni faktlara üstünlük verilmiş və məsələyə müasir tələblər baxımından yanaşılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqatın məqsəd və vəzifələrinə uyğun olaraq müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

1. Naxçıvanda Pedaqoji Texnikumların fəaliyyət dövrü iki yerə ayrılır;
2. Naxçıvan Pedaqoji Texnikumların orta məktəblərə müəllim kadrlarının hazırlanmasında mühüm rol oyanmışdır;
3. İkinci Dünya müharibəsi illərində istər ön, istərsə də arxa cəbhədə Naxçıvan təhsil müəssisələrinin əməkdaşlarının xüsusi rollarının olduğunu görürük;
4. Naxçıvan Muxtar Respublikası Pedaqoji Texnikumların və Müəllimlər İnstitutunun məzunları elm və təhsil, dövlət quruculuğunda mühüm fəaliyyət göstərmişdilər.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliyi hər şeydən öncə mövzunun seçilməsindən, problemin qoyuluşundan, işin məqsəd və vəzifəsindən irəli gəlir. Hazırki dissertasiya göstərilən

problem üzrə ilk ümumiləşdirilmiş işdir. Elmi işin yeniliyi aşağıdakılardan ibarətdir:

- İlk dəfə olaraq 1922-1971-ci illərdə Naxçıvan bölgəsində orta və ali ixtisas təhsil müəssisələrinin inkişaf yolu və problemləri kompleks şəkildə tədqiq edilmişdir;

- 1922-1971-ci illərdə Naxçıvanda orta və ali ixtisas təhsil müəssisələrinin inkişaf yolu və orta məktəblərə müəllim kadrlarının hazırlanması işinin təşkili haqqında tarixi səpkidə çoxsaylı mənbə və faktlara əsaslanan ümumiləşdirilmiş ilk elmi tədqiqat işidir;

- Naxçıvanda və Ordubadda pedaqoji texnikumların açılışı, fəaliyyəti, təşəkkül və inkişaf yolları (1922-1971-ci illərdə) faktlarla təhlil və şərh edilmişdir;

-1922-1971-ci illərdə Naxçıvanda təhsilin inkişaf yolları tutarlı faktlarla əsaslandırılmışdır;

- Naxçıvan Müəllimlər İnstitutunda Pedaqoji texnikumlarda kadr hazırlığında pedaqoji təcrübənin rolunun əsas cəhətləri çoxsaylı sənədlərin məlumatları əsasında tədqiq olunmuşdur;

- Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialının yaranması, fəaliyyəti və kadr hazırlığında rolu tutarlı faktlarla öyrənilmişdir;

-Naxçıvan Muxtar Respublikası Pedaqoji Texnikumlarının və Müəllimlər İnstitutunun məzunları başlıca olaraq ulu öndər Heydər Əliyevin müəllimləri, keçdiyi ixtisaslar, aldığı qiymətlər və məktəbdəki fəaliyyətləri faktlar əsasında tədqiq olunmuşdur;

- Naxçıvan Muxtar Respublikası Pedaqoji Texnikumlarının və Müəllimlər İnstitutunun məzunlarının hər birinin ayrı-ayrılıqda dövlət quruculuğunda və elm və təhsil sahəsindəki fəaliyyətləri araşdırılaraq ortaya qoyulmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işində Naxçıvanda maarifçilik hərəkatına, təhsil sisteminin inkişafı tarixinə ümumi nəzər salınır, həllini gözləyən problemlər müəyyənləşdirilir və şərh edilir. Dissertasiyadakı ümumiləşdirmələr və çıxarılan nəticələr gələcəkdə bu problemlə bağlı aparılan yeni tədqiqatlar üçün əsas ola bilər. Tədqiqat işinin nəticələrindən Naxçıvan Muxtar Respublikasında mövzuya dair elmi-tədqiqat işlərinin və ümumiləşdirici

əsərlərin yazılmasında, ali tədris müəssisələrində mühazirələrin tərtibində, dərs vəsaitlərinin hazırlanmasında, problemə aid seminar məşğələlərində istifadə etmək olar. Dissertasiya işinin nəticələrindən, eyni zamanda gələcək araşdırmalarda mənbəşünaslıq baxımından da geniş istifadə etmək mümkündür.

**Dissertasiyanın aprobasiyası və tətbiqi.** Dissertasiyanın mövzusu AMEA Naxçıvan Bölməsinin Rəyasət Heyətinin 12 yanvar 2015-ci il tarixli iclasında (Protokol № 1) və Respublika Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının Tarix Problemləri üzrə Elmi Şurasının 03 fevral 2017-ci il tarixli iclasında (Protokol № 1/9) müzakirə edilərək təsdiq olunmuşdur. Dissertasiyanın əsas məzmunu müəllifin müxtəlif vaxtlarda respublikamızda və xaricdə nəşr olunmuş bir neçə məqaləsində öz əksini tapmışdır. Dissertasiya işi ali təhsil müəssisələrində tətbiq edilə bilər.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**. Dissertasiya işi AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunda yerinə yetirilmişdir.

**Dissertasiyanın quruluşu və həcmi.** Dissertasiyanın strukturu əsasən, tədqiqatın predmet və vəzifələrindən irəli gəlmişdir. Dissertasiya işi giriş, üç fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir. Giriş hissə 17.421 işarədən, I Fəsil 145.816 işarədən, II Fəsil 60.897 işarədən, III Fəsil 34.714 işarədən, nəticə hissəsi isə 8.345 işarədən ibarət olmaqla, cəmi 267.193 işarə sayı təşkil edir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **“Giriş”** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi ortaya qoyulmuş, məqsəd və vəzifələri, elmi yeniliyi və təcrübi əhəmiyyəti müəyyənləşdirilmiş, metodoloji əsası, müdafiəyə çıxarılan əsas müddəalar təhlil olunmuşdur.

Dissertasiyanın **“Naxçıvan Muxtar Respublikasında pedaqoji texnikumların yeri”** adlı birinci fəsli dörd paraqrafa ayrılmışdır. “**Pedaqoji texnikumların açılmasına qədər Naxçıvanda xalq təhsili ənənələri”** adlı birinci paraqrafda Naxçıvanda Orta əsrlərdən bu günə qədər təhsilin inkişaf tarixinə nəzər salınmış və geniş şərh edilmişdir. Məlum olmuşdur ki, çox qədim və zəngin məktəb tarixinə malik olan Naxçıvan maarifi maraqlı bir inkişaf yolu keçmişdir. Hələ Orta əsrlərdə mövcud olan xanəgahlardan, mədrəsələrdən, dəbestan və sair tipli təhsil ocaqlarından gələn səslər göstərir ki, bu diyarın özünəməxsus maarif və məktəb salnaməsi olmuşdur. Azərbaycan Çar Rusiyası və Qacarlar dövləti arasında bölüşdürüldükdən sonra Rusiyanın əyalətə çevirdiyi Şimali Azərbaycanda siyasi-iqtisadi sahələrdə keçirdiyi islahatlar Naxçıvan diyarının da iqtisadi, ictimai və mədəni həyatında ciddi dəyişikliyə səbəb olmuşdur. Bu zaman Azərbaycanda milli ənənələrə əsaslanan maarifçilik hərəkatının dirçəlməsinin Naxçıvanda da özünü yeni formada göstərməyə başlamasına, mütərəqqi, demokratik ziyalılar təbəqəsinin formalaşmasına zəmin yaratmış, yeni tipli mədəni-maarif ocaqları təşkil edilmiş, dünyəvi elmlər tədris olunmağa başlamışdır.

XIX əsrin 20-ci illərindən başlayaraq Azərbaycanda dövlət məktəbləri açmaq fikri get-gedə qüvvətlənirdi. Cənubi Qafqazın bir sıra şəhərlərində, o cümlədən Naxçıvanda və Ordubadda qəza məktəbləri açılması nəzərdə tutulurdu. Onu da qeyd etmək lazımdır ki, çarizmin niyyətlərindən asılı olmayaraq təhsil əsasən rus dilində verilsə də, belə yeni məktəblərin təşkili o dövr üçün mütərəqqi hadisə idi.

Azərbaycanın böyük şəhərlərindən biri kimi Naxçıvanda da əhalinin qabaqcıl dəstəsi təhsilin rus dilində verildiyi məktəbin açılmasını tələb edirdi. Bütün bunlar onunla nəticələndi ki, hökumət

ilk dəfə Zaqafqaziyanın əsasən bir sıra iri şəhərlərində, o cümlədən Naxçıvanda qəza məktəbi adlanan təhsil müəssisəsi açmağı lazım bildi və bu, Zaqafqaziya məktəblərinin 1829-cu il 2 avqust tarixli nizamnaməsi ilə təsdiq edildi.[15] Bütün bunlara baxmayaraq, Naxçıvanda qəza məktəbinin açılışı bir qədər ləngimişdir. Burada qəza məktəblərinin təşkilinin bir neçə il gecikdirilməsi, hər şeydən əvvəl, müəllim kadrlarının olmaması ilə izah olunurdu.

Araşdırılan arxiv sənədlərindən aydın olur ki, Naxçıvan qəzasında ilk məktəb 1837-ci il martın 25-də açılmışdır. Məktəbə ilk dəfə 20 nəfərə yaxın uşaq cəlb edilmişdir. Bununla bağlı tarix üzrə elmlər doktoru Həmzə Cəfərov yazır: "*Naxçıvanda ilk qəza məktəbi 1837-ci ilin mart ayında qəza hakimi Ehsan xan tərəfindən öz evində açılmış, onun oğlanları bu məktəbi öz himayələrinə götürmüş, hər il məktəbin nəfinə 200 manat gümüş ödəmişlər".*[16]

Bundan əlavə, Naxçıvanda yerli əhali də məktəbə hüsn-rəğbət bəsləyir, ona maddi kömək göstərirdilər. Təkcə 1839-cu ildə yerli əhali tərəfindən məktəbə yardım məqsədilə gümüş pul ilə 352 manat pul toplanmışdır.

Qəza məktəblərinin açılmasında məqsəd elitar təbəqə uşaqları arasında ibtidai savadı yaymaq və şagirdləri Tiflis gimnaziyasında təhsillərini davam etdirməyə hazırlamaqdan ibarət idi. 1868-ci ildən etibarən mövcud qəza məktəbləri, o cümlədən Naxçıvan qəza məktəbi 3 əsas sinifli məktəbə çevrildi. Həmin ildə məktəbin tədris planına latın dili və Avropa dilləri (alman, fransız) daxil edildi.

XIX əsrin 60-70-ci illərinin ictimai-pedaqoji hərəkatı və məktəb islahatları ilə əlaqədar hökumət şəhər məktəbləri adlı yeni məktəb açmağa məcbur oldu. 1870-ci il may ayının 31-də qəbul olunmuş yeni nizamnamə ilə əlaqədar mövcud qəza məktəbləri tədricən şəhər məktəblərinə çevrildi. Həmin nizamnamə ilə Naxçıvan qəza məktəbi də 1877-ci ildə yenidən quruldu və şəhər məktəbi adlandırıldı. Tip etibarilə daha üstün olan şəhər məktəblərinin meydana gəlməsi irəli-

---

[15]Əhmədov, H. XIX əsr Azərbaycan məktəbi / H.Əhmədov. – Bakı: "Maarif", – 1965. – 297 s.

[16]Cəfərov, H. Naxçıvanda təhsil: inkişaf yolu və imkanları / H.Cəfərov. – Bakı: "Elm və təhsil", – 2011. – 341 s.

yə doğru böyük bir addım idi. Burada Azərbaycan və rus dillərindən başqa hesab, həndəsə, coğrafiya, tarix, təbiət tədris edilir, rəsm və rəsmxət öyrədilirdi. Naxçıvan xalq maarifinin inkişafında 12 sentyabr 1876-cı ildə əsası qoyulan Zaqafqaziya Müəllimlər Seminariyasının xüsusi rolu olmuşdur.[17]

Ümumiyyətlə, Naxçıvanda xalq maarifinin inkişafında E.Sultanov, M.Süleymanov, Ə.Xəlilov, M.Şahtaxtinski, M.Kəngərli, S.Xəlilov, Ə.Sultanov, Q.Şərifov, Ə.Qəmküsar və başqaları böyük xidmət göstərmişlər. Bütün bunlara baxmayaraq Çar Rusiyasında, o cümlədən Azərbaycanda baş verən ictimai-siyasi vəziyyət bütün sahələrdə olduğu kimi, maarif sistemində də böhran yaratmış, çarizmin müstəmləkəçilik siyasəti nəticəsində Naxçıvan diyarı əhalisinin əksəriyyəti savadsız idi. Yazmağı və oxumağı bacaran insanların sayı əhalinin ümumi sayının cəmi 3-4 faizini təşkil edirdi.

Fəslin **"1922-1971-ci illərdə Naxçıvanda ibtidai, natamam və orta təhsilin inkişaf yolları"** adlanan ikinci paraqrafında ibtidai, natamam və orta təhsilin inkişaf səviyyəsi araşdırılmışdır. Araşdırmalar nəticəsində Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanda yeni məktəb tikintisində 1922-ci ildə Xalq Maarif Komissarlığı kollegiyası tərəfindən təsdiq olunmuş "Azərbaycan SSR I dərəcəli əmək məktəbləri haqqında Əsasnamə"nin böyük rol oynadığı ortaya çıxmışdır. "Xalq Maarif Komissarlığı haqqında Əsasnamə" Naxçıvan Respublikası Mərkəzi İcraiyyə Komitəsi tərəfindən təsdiq olunmuşdu. Əsasnaməyə görə, İnqilab Komitəsi partiyanın proqram və tələblərinə rəhbərlik edərək bütün zəhmətkeşlərə başa saldı ki, şagirdlərin əmək inkişafını kənarda saxlayan köhnə məktəb tipli orta və ibtidai məktəblər tamamlanmış peşəkar təhsil ilə əvəzlənəcək. Yeni məktəb iki dərəcədən ibarət olacaq: birinci beşillik və ikinci dörd illik. Dərslər doğma dildə keçiriləcək və təhsil mümkün qədər birgə aparılacaq. Bütün bunlar ibtidai, natamam və orta təhsilin inkişafına mühüm töhfələr vermişdi.

Bəhs olunan dövrdə Naxçıvanda xalq maarif sahəsində ən böyük hadisə qızların təhsilə cəlb edilməsi olmuşdur. Sovet hakimiyyətinin

---

[17]Cəfərov, F., İsmayılova, Z. Naxçıvanın məktəb tarixindən səhifələr / F.Cəfərov, Z.İsmayılova. – Bakı: Elm və təhsil, – 2015. – 227 s.

ilk ilində Naxçıvan diyarının məktəblərində qızların sayı 80 nəfər idisə, 1925-ci ildə 1920-ci illə müqayisədə məktəblərdə qızların sayı 5,5 dəfə artdı və 100 nəfərdən 1083 nəfərə çatmışdır. 1930-1931-ci tədris ilində muxtar respublikada ümumilikdə 8-12 yaşlı 1377 nəfər şagird icbari təhsilə cəlb edilmişdir ki, onların 699-u qız idi. Məktəb şəbəkəsinin genişlənməsi nəticəsində növbəti ildə məktəblərin sayı 163-ə, şagirdlərin sayı 16.427 nəfərə çatmışdı ki, onların da 5.552 nəfəri qız idi.

1928-ci ilin may ayında Naxçıvan MİK Rəyasət Heyətinin iclasında "Respublikada 4 və 3 sinifli məktəblərin tikilməsi haqqında" qərar qəbul olunmuşdu. Bu qərara əsasən bir neçə kənddə məktəb tikilmişdi. İbtidai məcburi təhsilə keçirilməsi üçün 1925-1926-cı təhsil ilində Naxçıvan MSSR büdcəsindən 350.046 manat pul ayrılmışdısa, 1929-1930-cu təhsil ilində bu məqsədlər üçün 447.363 manat vəsait ayrılmışdı.

1938-ci ildə Şahbuzkənd, Yengicə, Əbrəqunus, Bist kəndlərində 4 orta məktəb açılmışdı. Bundan əlavə, Ordubad şəhərində 112 şagirdlik pedaqoji texnikum, 110 şagirdlik pedaqoji işçi fakültəsi, 12 yeni ibtidai məktəb açılmışdı.

1938-1939-cu illərdə muxtar respublikada 865 müəllim (109-u qadın), 1939-1940-cı illərdə 960 müəllim (128-i qadın), 1940-1941-ci tədris ilində 1027 müəllim (140-ı qadın) var idi.

Müəllim kadrlarının hazırlanmasında Naxçıvan və Ordubad Pedaqoji Texnikumları və 1939-cu ildə fəaliyyətə başlayan İkiillik Müəllimlər İnstitutu mühüm rol oynamışdı. 1939-1940-cı təhsil ilində respublika məktəblərində 960 müəllim var idi ki, onlardan 170-i ali və orta təhsilə malik idi.

1948-1949-cu tədris ilində respublikada məktəb şəbəkəsi genişləndirilmiş, şagirdlərin sayı 23.934-dən 24.423 nəfərə çatmışdır. 1951-ci ildə Naxçıvan MSSR-də 31 orta, 80 yeddiillik və 70 ibtidai məktəbdə təhsil alan şagirdlərin ümumi sayı 23.524 nəfərə çatmışdır ki, onlardan 12.833 nəfəri ibtidai, 8.424 nəfəri yeddiillik, 2.264 nəfəri orta məktəblərdə təhsil alırdı.

1949-cu ildən etibarən Naxçıvan MR ümumicbari yeddiillik, 1959-cu ildən başlayaraq səkkizillik, 1966-cı ildən isə orta təhsil

onillik həyata keçirilməyə başladı. 1969-1970-ci tədris ilində üçillik ibtidai təhsilə keçirildi.

1946-1961-ci illərdə Naxçıvan MSSR-də ümumtəhsil məktəblərinin şəbəkəsi genişlənmiş, onların strukturunda mühüm dəyişikliklər baş vermişdi. Tədqiqata cəlb edilən dövrdə Naxçıvanda bir sıra müəllimlər var idi ki, onlar Azərbaycan SSR Əməkdar Müəllimi adını almışdılar. Naxçıvan məktəbləri Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin "Orta ümumtəhsil məktəblərinin işini daha da yaxşılaşdırmaq haqqında" (1966) verilmiş qərarı əldə rəhbər tutaraq öz işlərində ciddi dönüş yaratmışlar.

1969-cu ilin iyul ayında ulu öndər Heydər Əliyevin rəhbərliyə gəlməsi o vaxt geridə qalmış Azərbaycanın keçmiş ittifaq məkanında ön cərgəyə çıxması iqtisadiyyatda, sənayedə, tikintidə, kənd təsərrüfatında, mədəniyyətdə, elm və təhsildə misli görünməmiş nailiyyətlər əldə olunmasına gətirib çıxardı. 1971-ci ildə Azərbaycan KP MK-nın birinci katibi işləyərkən Heydər Əliyev Azərbaycan KP MK-nın XXVIII qurultayına MK-nın hesabat məruzəsində çıxış edərkən demişdir: *"Məktəbə bütün ictimaiyyətimiz diqqət və qayğı göstərməlidir".*[18]

Dissertasiya işində birinci fəslin üçüncü paraqrafı **"Naxçıvanda və Ordubadda pedaqoji texnikumların açılışı və fəaliyyəti (1922-1945-ci illər)"** adlanır ki, bu paraqrafda tədqiqata cəlb edilən dövrdə Naxçıvanda və Ordubadda pedaqoji texnikumların açılışı və fəaliyyəti öyrənilmişdir.

Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, Naxçıvanda Sovet hakimiyyətinin yaranmasından sonra partiya və hökumətin göstərişləri ilə əlaqədar Naxçıvan Respublikası Xalq Maarif Komissarlığı müəllim seminariyalarının təşkilinə başlamışdır. 28 avqust 1922-ci ildə Naxçıvan diyar müəllimlərinin birinci qurultayı təşkil olunmuşdur və burada diyar müəllimlərinin əsas məsələləri həll olunmuşdur. Qurultayda Naxçıvanda 1922-ci ilin noyabr ayında müəllim seminariyasının açılması və onun avadanlıq və dərs vəsaitləri ilə təmini haqqında qərar qəbul edilmişdir.

---

[18]"Şərq qapısı" qəzeti, – 1971, 11 mart, – s. 1-2

Müəllimlər Seminariyası diyar zəhmətkeşlərinin mədəniyyətinin inkişafında, xalq maarifinin savadlı kadrların hazırlanmasında böyük rol oynamışdır. 1923/24-cü təhsil ilində Kişi Müəllimlər Seminariyası Naxçıvan Pedaqoji Texnikumuna çevrilir.[19] 1923-cü ilin dekabr ayında Naxçıvan Diyar İcraiyyə Komitəsi Rəyasət Heyətinin qərarı ilə Naxçıvan Kişi Müəllimlər Seminariyası Ordubad şəhərinə köçürülmüşdür.[20]

1925-ci ilin avqust ayının 16-da Naxçıvan Xalq Maarif Komissarlığının heyət şurasının iclası keçirilir. İclasda pedaqoji texnikumların birləşdirilməsi, Ordubad texnikumunun Naxçıvana köçürülməsi və "Unas" Pedaqoji texnikumu haqqında məsələlər müzakirə olunmuşdur. 1925-ci ildə Qadın ("Unas") texnikumuna Fatma Əlizadə direktor təyin olunmuşdur.[21]

1925/1926-cı təhsil ilində kişi pedaqoji texnikumlarında 119 nəfər, qadın pedaqoji texnikumlarında 55 nəfər təhsil almışdır. 1926/1927-ci təhsil ilində kişi texnikumunun 18 müəllimdən ibarət ilk məzunu olmuşdur və onlar muxtar respublikanın məktəblərinə paylanmışdılar. 1927-1928-ci tədris ilində Naxçıvan Pedaqoji Texnikumunu 24 məzun bitirmişdi. Artıq kişi və qadın texnikumları birləşdirildiyindən texnikumda müəllimlərin sayı kəskin surətdə artmış, Azərbaycanın digər bölgələrindən olan müəllimlər texnikumun pedaqoji heyətinə daxil olmuşdular.

1930-cu illərdə Naxçıvan Pedaqoji Texnikumunda fəhlə fakültələri fəaliyyət göstərməyə başlamışdır. Naxçıvan Muxtar Respublikasında ilk pedaqoji fəhlə fakültəsi 1930-1931-ci dərs ilində Naxçıvan Pedaqoji Texnikumunun nəzdində açıldı. Fəhlə fakültəsində 30 nəfər tələbə təhsil almışdır. Onu da qeyd edək ki, ali təhsil müəssisələrində böyük işi fəhlə fakültələri oynamışdır.

---

[19] Naxçıvan MSSR Xalq Maarif Komissarlığının hesabatı // NMRDA, Fond №1, siyahı №1, iş № 373, vərəq - 18

[20] Naxçıvan MSSR Xalq Maarif Komissarlığının əmr kitabları // Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMRDA), Fond № 1, siyahı №2, iş №4, vərəq - 25

[21] Naxçıvan MSSR Xalq Maarif Komissarlığının iclas protokolları // NMRDA, Fond №1, siyahı № 1, iş №23, vərəq – 33

Aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, 1932-ci ildə Naxçıvan Pedaqoji Texnikumunda 8 aylıq pedaqoji kurs açılmışdı. Pedaqoji kursa texnikumun direktoru Ömər Aslanov rəhbərlik etmişdir.

1938-ci ilin avqust ayında Azərbaycan K(b)P və Naxçıvan MSSR Xalq Komissarlar Soveti büro iclasında Naxçıvanda fəhlə fakültələrinin ləğv olunması haqqında məsələ müzakirə olunmuşdur. Qəbul edilmiş qərara görə 1938-ci ilin sentyabrında Naxçıvan pedaqoji fəhlə fakültəsi ləğv olunmuş və Pedaqoji Texnikuma birləşdirilmişdir. Bundan sonra pedaqoji texnikum əyani və qiyabi şöbələrlə öz fəaliyyətini davam etdirmişdir.

1930-1934-cü illərdə texnikumun fəaliyyətinə aid arxiv sənədlərindən aydın olur ki, texnikum fəaliyyətinin sonuna qədər tədris prosesi ilə yanaşı, dərsdənkənar mədəni-kütləvi tədbirlərin keçirilməsini ön plana çəkmiş, həmin tədbirlər vasitəsilə tələbələrdə ictimai fikrin inkişafına zəmin yaratmışdı. Bu tədbirlər tələbələrin hərtərəfli inkişafında əsas rol oynamışdır.

Naxçıvan Pedaqoji Texnikumunda təlim-tədris işlərinə yeni bir vüsət vermək üçün metodik təşkilatlarda ana dili, ictimaiyyət, riyaziyyat, təbiət və s. dərslərin vəziyyəti müzakirə olunur və qabaqcıl təcrübənin öyrənilməsinə xüsusi yer verilirdi. Bütün bunlar texnikumun tələbələrinin gələcək fəaliyyəti üçün zəmin yaradırdı.

Müəllim kadrlarına olan tələbatı ödəmək üçün 1937-38-ci dərs ilində Ordubadda Pedaqoji Texnikum açılmışdı. Ordubad Müəllimlər Seminariyasının davamı olan Pedaqoji Texnikum burada 20 il fəaliyyət göstərdi. Respublikamızı 1000-dən çox şərəfli və çətin peşə sahibləri olan müəllim kadrları ilə təmin etmişdi. Texnikumun ilk direktoru vəzifəsinə Mehdi Mehdiyev təyin edilmişdi. Onu da qeyd edək ki, 1937-1938-ci ildə Ordubad Pedaqoji Məktəbinin büdcəsi 111.300 manat təşkil edirdisə, 1939-1940-cı tədris ilində artaraq 368.700 manat olmuşdur.

1940-1941-ci tədris ilində Naxçıvan Pedaqoji Texnikumunu 94, Ordubad Pedaqoji Texnikumunu 92 nəfər bitirərək fəaliyyətə başlamışdı. 1941-ci ildə Naxçıvan Pedaqoji Texnikumu ləğv edilərək Ordubad Pedaqoji Texnikumuna birləşdi. Naxçıvan Pedaqoji Tex-

nikumunun bağlanmasına səbəb 1939-cu ildə Naxçıvan İkiillik Müəllimlər İnstitutunun fəaliyyətə başlaması olmuşdur.

İkinci Dünya müharibəsi illərində Ordubad Pedaqoji Məktəbi də öz işini müharibə şəraitinə uyğun qurmağa başlamışdı. Məktəbin mükəmməl hərbi kabineti, özünümüdafiə qrupu təşkil edildi. Ordubad Pedaqoji Məktəbində hərbi işə daim diqqət yetirilmiş, hərbi quruluş işlərini yaxşılaşdırmaq üçün işlər görülmüşdür.

İkinci Dünya müharibəsi illərində Naxçıvan və Ordubad Pedaqoji Texnikumlarının yüzlərlə məzunu düşmənə sinə gərərək Azərbaycan xalqının qəhrəmanlıq salnaməsinə öz adlarını yazdırmışlar.

I fəslin dördüncü paraqrafı isə **“Pedaqoji texnikumların bərpa və quruculuq illərində təşəkkülü və inkişaf yolları (1946-1971-ci illər)”** adlanır ki, bu paraqrafda pedaqoji texnikumların təşəkkül və inkişaf yolları araşdırılmış, bu sahəsində həyata keçirilən tədbirlər ortaya qoyulmuşdur.

Pedaqoji texnikumlar bərpa və quruculuq illərində də inkişaf yolu keçmişdi. Belə ki, 1946-1947-ci dərs ilinə dair arxiv sənədlərindən aydın olur ki, 39 nəfər tələbə tam müvəffəqiyyətlərlə məktəbi bitirərək Pedaqoji Şuranın qərarı ilə ibtidai məktəb müəllimi adı almışdır. 1946-1947-ci tədris ilində Ordubad Pedaqoji Texnikumuna 110 nəfər tələbə qəbul olunmuşdur ki, qəbul olunanlar təkcə Ordubad rayonundan yox, müxtəlif rayonlardan idi. 1949-1950-ci tədris ilində Azərbaycan SSR Maarif Nazirliyi tərəfindən verilən plana əsasən məktəbə 90 şagird qəbul edilməli idi. Qəbul üçün 185 nəfər abituriyent sənəd vermiş, imtahandan keçirilərək I kursa 90 şagird qəbul edilmişdir.

1947-1948-ci tədris ilində məktəbdə Azərbaycan və rus dillərində “Gənc pedaqoq” adlı qəzet nəşr olunmuşdur. Bu qəzetin tədrisin keyfiyyətinin yüksəldilməsi işinə böyük təsiri olmuşdur. 1950-51-ci tədris ilində məktəbdə 200 nəfərlik iclas zalı, tamaşa səhnəsi, qiraətxana, kitabxana, kabinələr mövcud olmuşdur. Həmin ildə Ordubad Pedaqoji məktəbində 15000 manatlıq 9000 adda kitab tələbələrin istifadəsinə verilmişdir. 1956-1957-ci dərs ilində Ordubad Pedaqoji məktəbində 14 nəfər müəllim çalışmışdır. 1958-ci ildə

Ordubad Pedaqoji məktəbinin fəaliyyətinə xitam verilmiş, 1965-ci ildə Naxçıvan şəhərində yenidən pedaqoji məktəb təşkil edilmişdir.

Məktəbdə müəllimlərin ciddi səyi nəticəsində məktəbdə dərs keyfiyyəti yüksəlmiş, nümunəvi nizam-intizam hökm sürmüşdür. Keçən əsrin əvvəllərində olduğu kimi, yenə də pedaqoji məktəb muxtar respublikada müəllim kadrları hazırlayan yeganə mərkəz idi. 1967-ci ildə Naxçıvan Pedaqoji Məktəbin 91 nəfər məzunu Naxçıvan MSSR Maarif Nazirliyinin sərəncamına verilmişdi. Naxçıvan MSSR Maarif Nazirliyinin əmri ilə bu məzunlar muxtar respublikanın müəllim kadrlarına ehtiyacı olan məktəblərə göndərilmişdi.

1966-1967-ci tədris ilində Naxçıvan Pedaqoji Məktəbində yeni bir ixtisasa – məktəbəqədər tərbiyəçi, 1969-cu ildə isə bədən tərbiyə ixtisasına sənəd qəbulu başlamışdı. Naxçıvan şəhərində 1967-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun filialının açılması ilə əlaqədar tələbə qəbulu azalmışdır. Naxçıvan MSSR Nazirlər Soveti sədrinin tələbi yerinə yetirildi. 1 avqust 1971-ci ildə Pedaqoji Məktəb ləğv olunaraq, onun bazasında Politexnik Texnikumu yaradıldı və texnikma tələbə qəbulu elan olundu. 1970-1971-ci tədris ilində Pedaqoji Məktəbə qəbul olan tələbələr öz təhsillərini davam etdirdilər.

Dissertasiyanın ikinci fəsli **“Naxçıvan Muxtar Respublikasında ali və orta ixtisas təhsil müəssisələrinin təşəkkülü, inkişafı və kadr hazırlığında rolu”** adlanır. Bu fəslin birinci paraqrafında **“Naxçıvan Müəllimlər İnstitutunun təşəkkül tarixi və ali təhsilli kadrların hazırlanmasında rolu (1939-1954-cü illər)”** məsələsi araşdırılmışdır.

Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, Naxçıvan Müəllimlər İnstitutu Naxçıvan MSSR Xalq Komissarları Sovetinin 14 avqust 1939-cu il tarixli fərmanı əsasında təsis olunmuşdur.[22]

Beləliklə, 1939-cu ilin sentyabrın 15-dən sentyabrın 25-nə qədər İkiillik Müəllimlər İnstitutuna qəbul olunmaq üçün 190 ərizə daxil olur. 40 nəfər abituriyent ərizə verməsinə baxmayaraq ordu sıralarına

---

[22]Naxçıvan Dövlət Müəllimlər İnstitutuna daxil olmuş təliqələr // NMRDA, Fond №224, siyahı №11, iş №230, vərəq – 46

getmiş, 49 nəfər imtahanlardan keçməmiş, 121 nəfər isə imtahan verdiyindən İkiillik Müəllimlər İnstitutuna qəbul olunmuşdular.[23]

Naxçıvan Müəllimlər İnstitutu 2 fakültə – fizika-riyaziyyat və dil-ədəbiyyat fakültələri ilə fəaliyyətə başlamışdı. Bundan əlavə, Naxçıvan Müəllimlər İnstitutunda hazırlıq siniflərinin təşkil edilməsi haqqında 10.10.1939-cu il tarixli əmrə əsasən Azərbaycan SSR Ali Məktəblər İdarəsinin əmrinə əsasən hazırlıq siniflərinin təşkilinə icazə verilmişdi. 1939-cu ilin sonunda Naxçıvan İkiillik Müəllimlər İnstitutunda hazırlıq kursları ilə birlikdə 165 nəfər tələbə təhsil almışdır. 1941-ci ildə Naxçıvan Müəllimlər İnstitutunun ilk buraxılışı olmuşdu. Birinci buraxılışda institutu 65 nəfər bitirmişdi. Onlardan 13 nəfəri fizika-riyaziyyat fakültəsinin məzunu idi. İlk məzunlar Naxçıvan Xalq Maarif Komissarlığı sərəncamına göndərilmişdi.[24]

1940-1941-ci tədris ilində instituta ikinci qəbul başlamışdı. İkinci qəbul İkinci Dünya müharibəsinin gedişi dövrünə təsadüf etdiyi üçün bu da sözsüz ki, qəbula öz təsirini göstərmişdi.

Naxçıvan Müəllimlər İnstitutunda qiyabi şöbəyə qəbul 1944-1945-ci dərs ilində təşkil edilmişdi. İlk giriş və göstəriş dövriyyəsi 1944-cü ilin iyul və avqust aylarında Naxçıvan və Ordubad şəhərlərində keçirilmişdir. İlk dəfə qiyabi şöbəyə 163 nəfər cəlb edilmiş, tarix-filologiya fakültəsinə 106 nəfər, təbiət-coğrafiya fakültəsinə 23 nəfər, fizika-riyaziyyat fakültəsinə 34 nəfər qəbul edilmişdir.

1941-1945-ci illər müharibə dövrünə təsadüf edən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Müəllimlər İnstitutu həmin dövrdə bir çox çətinliklərlə üzləşmişdi. Ancaq kollektivin əzmkarlığı və gərgin fəaliyyəti institutun iş tempinin zəifləməsinə imkan verməmişdi.

Naxçıvan Cəlil Məmmədquluzadə adına İkiillik Müəllimlər İnstitutu 1939-cu ildə fəaliyyətə başlayanda kifayət qədər pedaqoji ustalığa malik müəllimlər cəlb edilmişsə də, artıq 1950-ci illərdə institutda müəllimlərin sayı xeyli artmışdır. 1939-1954-cü illərdə 4

---

[23] Naxçıvan Dövlət Müəllimlər İnstitutunun dərs proqramları // NMRDA, Fond №224, siyahı №5, iş №23. vərəq – 29

[24]İnstitut tələbələrinə Müəllimlər İnstitutu tərəfindən verilən müvəqqəti vəsiqələr // NMRDA, Fond №224, siyahı №1, iş №44, vərəq — 58

fakültə üzrə (əyani və qiyabi) fəaliyyət göstərib muxtar respublikanı ali orta təhsilli pedaqoji kadrlarla təmin edən C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Müəllimlər İnstitutu muxtar respublikada maarifin inkişafı üçün çox gərgin dövrlərdə müstəsna rol oynamışdı.

Bu fəslin ikinci paraqrafında **"Naxçıvan Müəllimlər İnstitutunda və Pedaqoji texnikumlarda kadr hazırlığında pedaqoji təcrübənin rolu"** araşdırılmışdır. Yüksək ixtisaslı və dövrün tələblərinə cavab verən müəllim kadrlarının hazırlanması və formalaşmasında keçirilən pedaqoji təcrübə müstəsna əhəmiyyət kəsb edir. Pedaqoji təcrübələr onları müəllim peşəsinə hazırlayır, tələbələr təlimlə bərabər tərbiyəçi missiyasına yiyələnirlər. Araşdırmalardan məlum olmuşdur ki, istər Naxçıvan Pedaqoji Texnikumunda (1922-1941; 1965-1971), istərsə də Ordubad Pedaqoji Texnikumunda (1937-1958) pedaqoji təcrübə xüsusi əhəmiyyət kəsb etmişdir. 1940-1941-ci tədris ilində Müəllimlər İnstitutuna birinci qəbul olan tələbələrin pedaqoji təcrübəsi şəhər 1, 2 saylı məktəbində keçirilmiş, pedaqoji təcrübəyə müşahidəli praktika və nümunə dərslərinə rəhbərlik etmək praktika rəhbəri Davud İsrafilova həvalə edilmiş, institutun rəhbərliyi tərəfindən verilən əmrdə praktikanın gedişi haqqında 10 gündən bir rəhbərliyə təhriri məlumat verilməsi göstərilmişdir. 1943-cü ilin aprel ayının 15-dən may ayının 10-na qədər Əsəd Cəfərlinin rəhbərliyi altında dil-ədəbiyyat fakültəsi 1 №-li məktəbdə pedaqoji təcrübədə olmuş, tələbələrin keçirdikləri sınaq dərsləri "əla" və "yaxşı" qiymətlərlə qiymətləndirilmişdir.

Naxçıvan İkiillik Müəllimlər İnstitutu son kurs tələbələrinin Naxçıvan şəhər məktəblərində keçdikləri pedaqoji təcrübənin yekunu vaxtaşırı müzakirə olunmuşdur. Pedaqoji təcrübənin başlanması, tələbələrin məktəblərə göndərilməsi, metodist müəllimlərin siyahısı birbaşa Naxçıvan MSSR Maarif Nazirliyinə göndərilmişdir.

Pedaqoji təcrübələrin təşkilinə nəzarəti artırmaq və həmin təcrübələrin səmərəliliyini yüksəltmək məqsədi ilə institut rəhbərliyi xüsusi komissiya yaradaraq təcrübə keçən məktəblərə göndərmişdir. Pedaqoji təcrübədə olan tələbələrə metodiki köməklik göstərmək və onların işinə nəzarət etmək məqsədilə institut rəhbərliyi tərəfindən

yaradılan komissiyanın tərkibinə ən yaxşı müəllimlər daxil edilmişdir.

Naxçıvan Pedaqoji Məktəbi fəaliyyət göstərdiyi müddətdə tələbələr tədris planına uyğun olaraq mütəmadi Zona Təcrübə Stansiyası, Naxçıvan Meyvəçilik və Tingçilik sovxozunda Mövlud Abbasov, Tahirə Rzayeva, Adil Hacıyevin rəhbərliyi altında kənd təsərrüfatı bilikləri üzrə təcrübi məşğələlər aparmış, təbiətşünaslıq fənnindən keçdikləri bilikləri təcrübədə möhkəmləndirmişlər.

Ümumiyyətlə, bu paraqrafda arxiv materialları əsasında pedaqoji təcrübədə iştirak edən tələbələrin bir çoxunun adları, təcrübə zamanı iştirak etdikləri məktəblərin adları, onların aldıqları qiymətlər və təcrübədən sonra təhkim olduqları məktəblər geniş şəkildə tədqiqata cəlb edilmişdir.

**“Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialının yaranması və kadr hazırlığında rolu (1967-1971)”** adlanan üçüncü paraqrafda Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialının yaranması və kadr hazırlığında rolu araşdırılmışdır. Aparılan tədqiqatlardan məlum olmuşdur ki, Naxçıvan Muxtar Respublikasında ümumtəhsil məktəblərinin şəbəkəsinin genişlənməsi nəticəsində ali təhsilli müəllim kadrlarına böyük ehtiyac yaranmışdır. Bunun üçün Naxçıvanda Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialının yaranması zərurəti meydana çıxmışdır. Naxçıvanda açılacaq filial Azərbaycan Dövlət Pedaqoji İnstitutunun bir parçası və yetirməsi idi. 1967-ci ilin yayında filiala tələbə qəbulu elan olunmuşdu. Naxçıvan Muxtar Respublikasının məktəblərinin ən savadlı məzunları Azərbaycan Dövlət Pedaqoji İnstitutun Naxçıvan filialına sənəd vermişdilər. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı keçmiş 1 №-li məktəbinin bazasında üç ştat vahidi olmaqla (direktor, tədris işləri üzrə direktor müavini və metodist) açılmışdı.

1970-ci ildə Naxçıvan filialı Naxçıvan MSSR-də ali təhsilli kadrlar yetişdirən ilk və yeganə ali təhsil müəssisəsi olub, 5 fakültə: tarix, ədəbiyyat, riyaziyyat, coğrafiya, fizika fakültələri fəaliyyət göstərmiş, əyani şöbəsində 506 nəfər, qiyabi şöbədə isə 434 nəfər tələbə təhsil almışdır. 1970-ci ildə filialda 25 nəfər ştat üzrə, 18 nəfər

isə saathesabı müəllim işləmişdir. Bunlardan 11 nəfəri elmlər namizədi, 7 nəfəri isə ayrı-ayrı institutların aspirant və dissertantları idi. Səfərəli Babayev isə institutun direktoru vəzifəsində işləmişdir.[25]

Sonrakı dövrdə, yəni 1972-ci ildən başlayaraq Naxçıvan Dövlət Pedaqoji İnstitutunda ibtidai təhsil pedaqogikası və metodikası, fizika, ümumi texniki fənləri, əmək, kimya, biologiya ixtisasları üzrə müəllim hazırlanması üçün ayrıca yeni fakültələr açılmışdır. Bunların hamısı Azərbaycan Pedaqoji İnstitutunun fəaliyyəti, onun tədris planları, proqramları və göstərişləri ilə get-gedə inkişaf edib və təkmilləşmişdir.

Dissertasiyanın **"Naxçıvan Muxtar Respublikası Pedaqoji Texnikumlarının və Müəllimlər İnstitutunun məzunları: görkəmli şəxsiyyətlər"** adlanan üçüncü fəsli üç paraqrafdan ibarətdir. **"Naxçıvan Pedaqoji Texnikumunun məzunu ümummilli lider Heydər Əliyev"** adlı I paraqrafda Ulu öndər Heydər Əliyevin Naxçıvan Pedaqoji Texnikumuna daxil olması, orada oxuduğu fənlər və s. məsələlər öyrənilmişdir.

Bu texnikumun görkəmli yetirmələrindən biri də Azərbaycan Respublikasının prezidenti, Azərbaycanın görkəmli dövlət xadimi, "Ulu Öndər", "Ümummilli lider" titullarının daşıyıcısı Heydər Əlirza oğlu Əliyev olmuşdur. O, 1936-1937-ci tədris ilində Naxçıvan İnternasional Pedaqoji Texnikumuna daxil olmuşdur. Araşdırılan arxiv sənədlərindən aydın olur ki, 1936-1937-ci tədris ilində Naxçıvan Pedaqoji Texnikumunun hazırlıq şöbəsi ilə birlikdə 170 nəfər tələbə qəbul edilmişdir. Bunlardan 30 nəfəri hazırlıq şöbəsinə və 140 nəfər tələbə 4 qrupa, A, B, C və D qruplarına, bölünmüşdür. A qrupunda 35 nəfər, B qrupunda 34 nəfər, C qrupunda 34 nəfər, D qrupunda 34 nəfər şagird təhsil almışdır. Ulu öndərimiz "C" qrupunda oxumuşdur. Heydər Əliyev məktəbi əla qiymətlərlə oxuyaraq ən nümunəvi şagird sayılmışdır. O, yekunda bütün fənlərdən əla qiymətlər almışdır.

Tədqiqatlar nəticəsində ulu öndərin bütün ixtisaslardan olan müəllimlərinin adları ayrı ayrılıqda verilmiş, imtahanlar zamanı ona

[25] Naxçıvan MSSR-də xalq maarifinin inkişafı // NMRDA, Fond №713, siyahı №1, iş №89, vərəq – 37

hansı biletin düşdüyü, hansı ixtisasdan neçə qiymət aldığı ortaya qoyulmuşdur. Bundan əlavə, bu yarımfəsildə ulu öndərin sonrakı əmək fəaliyyətləri də tədqiqata cəlb edilmişdir.[26]

Üçüncü fəslin **“Texnikumların və Müəllimlər İnstitutunun məzunları dövlət quruculuğunda”** adlanan ikinci paraqrafında Texnikumların və Müəllimlər İnstitutunun məzunlarının dövlət quruculuğundakı fəaliyyətləri, tutduqları vəzifələr və s. tədqiqata cəlb edilmişdir. Aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, Azərbaycanın dövlət quruculuğu sahəsində Naxçıvan Pedaqoji Texnikumu və Müəllimlər İnstitutunun məzunları dövlətçiliyin yaranması və möhkəmləndirilməsi, dövlət quruculuğu və idarəçilik sahəsində çalışaraq bu sahədə xüsusi rol oynamışlar. Dissertasiya işində bu məzunların hər birinin adları ayrı-ayrılıqda çəkilmişdir. Onlardan Xudiyev Manaf Əsgər oğlunu, Kəngərli Nəsrulla Yaqub oğlunu, Əzimov Hüseynqulu Qurban oğlunu, Yusifov Əbil Məmməd oğlunu, Mehdiyev Həsən Musa oğlunu, Əkbərov Məhəmməd Həmzə oğlunu, Qurbanov Qənbər Heydər oğlunu, İmanov Cəfər Ələsgər oğlunu, Əzimov Əli Hüseyn oğlunu, Rzayev Həbib Allahverdi oğlunu, Nəbiyev Yusif Mustafa oğlunu və s. qeyd etmək olar.

**“Texnikumların və Müəllimlər İnstitutunun məzunları elm və təhsil sahəsində”** adlanan üçüncü paraqrafda isə Texnikumların və Müəllimlər İnstitutunun məzunlarının elm və təhsil sahəsində fəaliyyətləri tədqiqatlara cəlb edilmişdir. Araşdırmalardan məlum olmuşdur ki, Naxçıvan Pedaqoji Texnikumunun və Müəllimlər İnstitutunun məzunları arasında təkcə dövlət orqanlarında, dövlət quruculuğunda çalışanlardan başqa həyatını elm və təhsil sahəsinə vermiş, ömrünü bu sahədə sonlandırmış görkəmli insanlar da olmuşdur. Onlardan Bektaşi Məmməd Cabbar oğlunu, Babayev Səfəralı Yaqub oğlunu, Cəfərov Məmməd Zeynalabdın oğlunu, Məmmədyarov Məhərrəm Əli oğlunu, Əliyev Cəlal Əlirza oğlunu, Nəsirli Müzəffər Qasım oğlunu, Seyidov Yəhya Qasım oğlunu, Axundov Musa Abutalıb oğlunu, Məmmədov Dövlət Heydər oğlunu, Mirişli

[26] Naxçıvan Pedaqoji Texnikumunun direksiya müəllimlər və texniki işçilərin sənədləri // NMRDA, Fond №8, siyahı №2, iş №45, vərəq – 42

Adilə Yusif qızını, Tahirova Nazlı Əmirsuvar qızını, Zamanova Xurşud Məmməd qızını, Məmmədov Vaqif Cəfər oğlunu, Məmmədova Hökümə Qasım qızını, Axundlu Yavuz İbrahimxəlil oğlunu, Sadıqov Şükür Əli oğlunu və s. qeyd edə bilərik.

**Tədqiqatdan aşağıdakı nəticələrə gəlinir:**

- Naxçıvanda təhsil ənənələrinin Orta əsrlər dövründən mövcud olduğunu müşayiət etsək də, məlum olmuşdur ki, Naxçıvanda təhsil sahəsinin ən böyük uğurlarına XX əsrdə nail olunmuşdur (1).

- 1922-1971-ci illərdə texnikumların fəaliyyətləri araşdırılaraq belə bir nəticəyə gəlinmişdir ki, bəhs olunan dövrdə Naxçıvanda yüksək dərəcədə təhsil ənənələri və təhsil müəssisələri olmuşdur.

- XX əsrdə əvvəllərində bəhs olunan texnikumların yaranması və bu texnikumlarda o dövr üçün yüksək səviyyəli kadr ehtiyatının hazırlanması göstərir ki, Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda təhsil uzun müddət bir inkişaf prosesi keçib gəlmişdir (4).

- 1922-1971-ci illərdə Naxçıvanda təhsilin inkişaf yollarını ortaya qoyulmuş, Naxçıvan Muxtar Respublikasında ali və orta ixtisas təhsil müəssisələrinin təşəkkülü və inkişaf yolunu araşdırılmış, ilk dəfə Naxçıvan Müəllimlər İnstitutunun təşəkkül tarixi və ali təhsilli kadrların hazırlanmasında bu institutun, həmçinin 1967-1971-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialının rolu nəzərdən keçirilmişdir. Ancaq bir məsələni vurğulamaq lazımdır ki, belə yüksək səviyyəli İnstitutların yaranmasına baxmayaraq qızların ali təhsil almasına valideynlər nədənsə çox maraqlı deyildilər. Bunu biz qəbul planlarından da görürük (5; 8).

- Tədqiqat işində pedaqoji texnikumlarının kollektivi, şagird kontingenti ilə bağlı məsələlər öyrənilmiş, Naxçıvan Muxtar Respublikası Pedaqoji texnikumlarının və Müəllimlər İnstitutunun məzunlarının dövlət quruculuğunda və təhsil sahəsində yeri müəyyənləşdirilmişdir (1; 7).

**Dissertasiyanın məzmununu əhatə edən aşağıdakı elmi məqalələr nəşr olunmuşdur:**

1. Ulu öndər Heydər Əliyev və Naxçıvan Pedaqoji Texnikumu // Tarixi İpək yolu və Naxçıvanın iqtisadi-mədəni əlaqələrinin inkişafı məsələləri. Beynəlxalq İpək yolu konfransı, – Naxçıvan: – 16-17 oktyabr – 2015, – s. 117-119.
2. Роль Ордубадского Педагогического Училища в истории образования Нахчывана // Международная научно-практическая конференция. Современные проблемы гуманитарных и естественных наук. Материалы XXIX международной научно-практической конференции, – Москва: – 29-30 июня – 2016, – с. 75-81.
3. Организация и развитие высшей и средней специальной школы в Нахичеванской АССР (1922-1927 г.г.) // – Киев: Гилея, – 2016, – с. 140-142.
4. Naxçıvan Muxtar Respublikasında müəllim kadrlarının hazırlanmasında müstəsna xidməti olan təhsil ocağı – Naxçıvan İkiillik Müəllimlər İnstitutu // – Naxçıvan: Naxçıvan Universiteti "Elmi Əsərlər", (iqtisadiyyat, filologiya, tarix, coğrafiya, pedaqogika və psixologiya, riyaziyyat), – 2017, № 4 (7), – s. 277-287.
5. Naxçıvan Dövlət Universitetinin inkişaf tarixi (1967-1971) // – Naxçıvan: Naxçıvan Dövlət Universiteti "Elmi Əsərlər" ictimai elmlər seriyası, – 2017, № 6 (87), – s. 64-69.
6. Naxçıvan Pedaqoji Məktəbinin məzunları arxa cəbhədə // Naxçıvan: Naxçıvan Dövlət Universiteti "Elmi Əsərlər" humanitar elmlər seriyası, – 2018, № 1 (90), – s. 70-75.
7. Ордубадское Педагогическое Училище в годы Великой Отечественной Войны // Актуальные научные исследования в современном мире. Переяслав-Хмельницкий: – 2018, № 6 (38), – с. 60-62.
8. История развития Нахчыванской средней школы // Международная научная конференция. Актуальные научные исследования в современном мире. Материалы LXXI международной

научно-практической конференции. – Переяслав: – 26-27 марта, – 2021, – с. 118-127.

Dissertasiyanın müdafiəsi 05 noyabr 2021-ci il tarixdə saat $16^{00}$-da AMEA Naxçıvan Bölməsi nəzdində fəaliyyət göstərən ED 1.13 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsi, əsas bina, I mərtəbə, akt zalı

Dissertasiya ilə AMEA Naxçıvan Bölməsinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Naxçıvan Bölməsinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 05 may 2021-ci il tarixdə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 04.05.2021
Kağızın formatı: 60/84, 16/1
Həcm: 43.489
Tiraj: 100